# ADDIM SƏSİ,

## yaxud Dayandur Sevginin poeziyasında ənənənəyə ruhsal bağlılıq



Dərd Azərbaycan poeziyasının demək olar ki, əzəli mövzusudur. Bəs onda nə üçün bu mövzu nə yazanı usandırmır, nə də oxuyanı bezdirmir. Bəlkə də, bu sualın çoxlu cavabları var. Hətta nəinki yazanların sayı qədər, bəlkə, oxuyanların sayı qədər... həm dərddən yazan, həm də dərdi yazanın dərdini oxuyan hər dəfə dərdin ağrı-acısını sözün içindən ruhuna çəkdikcə mənən dirçəlir, başqa sözlə dərd insanı həyata çağırır. Onun əzablarına duruş gətirməyə səsləyir. Və yenə burada təkrar eləməyə dəyər bəlkə də insanı bəxtdən bezməyə qoymayan da elə bu səbəbdir.

Dayandur Sevginin poeziyasında dərdin işıq mahiyyəti çox parıltılıdır. Hətta bəzən bu parıltı şimşək çaxışına bənzəyir və az qala oxucusunun gözlərini qamaşdırır. Bəzən Dayandur heç dərd ifadəsini işlətmədən də dərdin obrazını boya-boy yarada bilir. Özü də çox mükəmməl fəlsəfi ümumiləşdirmələrlə "İkinci addım" şeirində olduğu kimi:

Bəxti gətirməyib, fələk əyənin,
Üzündə minillik ağrı-acı var.
Birinci addımda səhv eləyənin,
İkinci addıma ehtiyacı var.

Birinci atılan ilk addım ki, var,
Hədəfə birinci tuşlanan oxdur.
Birinci addımda büdrəmək olar,
Hətta yıxılmaq da qorxusu yoxdur.

Tale öz səhvini düzəltmək üçün insana həmişə şans vermir. Amma ruhunda mübarizlik, hətta yıxılandan sonra belə ayağa qalxıb özünü səfərbər edənlərin ikinci addımı daha sərrast olur. Çünki birinci addımda yıxılıbsa, bu onun üçün təcrübə olub, həyat dərsi olub. Birinci addımda büdrəmə ilə min ilin ağrı-acısını güc, qüdrət həbinə çevirir. Bu ağrı-acıları ruhuna dərman kimi qəbul edir.

Addım ata bilmək, yeriyə bilmək öz xəbərini ətrafa, aləmə ilkin olaraq səslə çatdırır. Dayandurun təbirincə desək, "sevincin müjdəsi ayaq səsi" olur. Bu ikinci addımla o artıq dadını ağrı-acı şəklində bildiyi birinci addımın çatmadığı yeni mərhələyə can atır və ora yetmək üçün özünü artıq hazır bilir:

Göründüyü ki-mi burada şair insanlığın qarşılaşdığı prob-lemləri, bir sözlə, həyat dərslərini ümumi-ləşdirir. Bir növ düstur halına gətirir. Hətta birinci addımın necə bəla ilə qarşı-laşdığını və bu bəlanın necə abidəyə çevril-diyini sözə gətirmək onun üçün çətin olmur. Ona görə yox ki, bəşərin bu üzdən yaşa-dıqlarını tə-səvvür edə bilir. Təsəvvürdən başqa onun dərdin bu üzünü bütün ağrı çaları ilə göstərmək üçün onun yaddaş ehtiyatı da var. Bu yaddaş ehtiyyatı ümumi insanlığı, bəşərin taleyini özündə ehtiva edən tarixdir. Həm də o tarixdir ki, şairin mənsub olduğu xalqın tarixi taleyini özündə əks etdirir. Sadəcə şair gözlərinin önündə canlanmış olan abidə dərdin xammalını, yəni sözü ənənənin ruhsal tələbatında cilalaya bilir. Daşı yonmaq, daşın içindəki həqiqəti-heykəli üzə çıxarmaq nə qədər heykəltaraşda zəhmət və zəka istəyirsə sözü də cilalamaqla istedad və zəhmət sayəsində onun içərisində yatmış olan dərd abidəsinə can vermək olar. Şairin düşüncəsində könül müqəddəsliyi ocaq müqəddəsliyidir. Ancaq təəssüf ki, mənsub olduğu xalqın tarixi taleyində könül sarayını yıxıb kül eləyənlərin adları yaddaşdan silinməyən dərd abidələrinin özülünə yazılıb:

Yaxıb könlümüzü kül elədilər,
İkinci addımın nə idi adı.
Birinci addımda güllələdilər,
Mikayıl Müşfiqi, Əhməd Cavadı.

Ayaq da ağrısın, diz də tutaq ki,
Heç zaman ağrıyan ürək olmasın.
Birinci addımı elə ataq ki,
Ikinci addıma gərək olmasın.

Şair üçün ikinci addımın adını axtarmaq nəticəsiz qalmır. Çünki ikinci addımın ünvanı elə birinci addımda əbədiləşib. Və göründüyü kimi Müşfiqləri, Cavadları, Cavidləri... birinci addım güllələyib. Və son nəticədə şair Səməd Vurğunsayaq nəticə ilə şeirini yekunlaşdırır. Amma əlbəttə, xəbərdarlıqla... insanlığın taleyinə zidd, düşməncəsinə yanaşanların özlərinə xəbərdarlıqla...

Bu gün Dayandur Sevginin poeziyasında ən üzdə görünən qabarıq cəhət onun ənənəyə klassik səviyyədə bağlılığıdır. Dövrümüzün söz adamları poeziyanın sərt kononlarını asanlıqla pozmağa meyillidirlər. Amma Dayandur Sevgin ənənəyə ruhsal bir duyğu ilə yanaşır və onu qoruyur. Onun düşüncə imkanları ənənə içərisində sözün həqiqətinə doğru və dürüst bir don biçir. Gözəlliyin doqquz donunun təkcə kəmiyyət tərəfi yox, həm də keyfiyyət tərəfi olduğunu poeziyanın iç dünyası ilə oxucusuna ötürə bilir.

Dayandur Sevgin demək olar ki, əksər şeirlərində bəşəri dərd üstə köklənmiş ənənənin dili ilə danışır. Şairin mənəvi mühitini kifayət qədər psixoloji araşdırmaya cəlb etmiş tədqiqatçı şairə Sona Vəliyeva sənətkarın yaradıcılığında işıq və dərd tərəfdaşlığını özünəməxsus diqqət və sayğı ilə incələyir:

Bu qeydləri Sona Vəliyeva Dayandur Sev-ginin "İkinci addım" kitabına yazdığı "ön söz yerinə oxucu sözü, və ya dərddən şeir işığına doğru yol başlayan sevginin nağılı..." adlı düşüncələrində verib. Göründüyü kimi poetik sözün ilahi söz mərtəbəsinə qalxışı onu da

# ADDIM səsi,

## yaxud Dayandur Sevginin poeziyasında ənənənəyə ruhsal bağlılıq

Sanki Dayandur Sevgin gəmidə olan bir nəfəri yox, bütövlükdə gəmini xilas etmək istəyir. Necə ki, Nzami "Xəmsə"si ilə bütövlükdə bəşərin xilas yolunu axtarırdı, necə ki, Sədi "Büstan" və "Gülüstan"ı ilə insanı düzlüyə və doğruluğa çəkirdi, necə ki, Füzuli ali sevgi dərsi keçirdi... Dayandur da sözün həqiqi mənasında cilanı qranit bütövlük qırılmazlığında olan poeziyası ilə bu ənənənin daşıycısıdır. Onun ümumi dünya taleyi ilə bağlı Allah və insan münasibətlərinə işıq tutan, insan dünyasına hakim olan şeytanın əməllərinin sərhədsizliyi... haqqında şeirləri hər kəsi düşündürmək gücündədir. Hətta bəzən sarsıdıcı təsir göstərən şeirləri aforistik gücdə olan misraları da az deyil.

"Allaha sual" şeirinin bircə bəndinə diqqət edək:

Nə var ki, salmağa, mərdi kəməndə,
Ədalətin gözü yuxuludursa.
Allahın köləsi sayılan bəndə,
Allahın özündən qorxuludursa,
Mən insandan qorxum, ya səndən, Allah?

Əlavə heçbir şərhə ehtiyac yoxdur. Şeir aşıladığı emosiya ilə, sonsuz aşıladığı duyğu ilə nə varsa hamısını deyir. Bu şeirin misraları arasından Qarabağın yanan bağrının közləri də görünür. Etibar olunan vəzifəyə quldurluq tamahının yırtıcı dişləri də görünür, dünyanın qan sızan yaralarının hamısı bu misraların içindən göynəmi ilə fəryad eləyir. Daha şair neyləməlidir?..

İlahi vəhy kimi cilalı, sərrast bir gəlişlə səslənən misralar zəlzələ yeri titrədən sayağı beynimizi sirkələyir, başımızın üstündə ildırım kimi çaxır. Hətta min ilin keylik yuxusunda olanı belə yerindən eləyir. Düşünməli olursan, baxmayaraq ki, bircə bəndlə qənaətimizi ifadə eləmək istədik, amma şeirin ilahi gücü sanki düşüncəmizin yaxasından yapışır. Və bizi cavaba təhrik eləyir. Neyləsən də yaxanı qurtala bilmirsən. sanki açıq bir savaşdasan. Gözünün qabağında günahsızın edam anına necə sakit-sakit seyirçi bir nəzərlə baxa bilərsən.

Allah qorxusu ilə insan qorxusu üzüzə gəlir. Tərəfini seçməlisən. Şairin ritorik sualları Allaha ünvanlansa da o, Allahı iddiam eləmir. Onun, daşı dələn sərrast nəzərləri əli-ayağı qan içində olan insanın varlığından keçib gedir:

Allahın qorxusu, insan qorxusu,
Yüz qara qorxular bir ağa düşüb.
Insan cilidində şeytan qorxusu,
Allah qorxusundan qabağa düşüb,

Yolumu gözləyən dar ağacı var,
Külək yellədikcə kəndiri əsir.
Sən mənim hayıma gəlib çatınca,
Bəndənin qılıncı başımı kəsir.

"Insan cilidində şeytan qorxusu" əslində, bizim mənəvi hakimiyyətinizi işğal eləyib. Insanın içindəki şeytan onun həqiqəti deyən dilini boğazından çəkib çıxarır. Onu özünün tamah təbiətinə tabe eləyir. Daha qorxmur ki, Füzuli demiş "tutar ahu- Vətən ol yerdə ki, otlu-suludur" çoxları yadından çıxarır ki, yapdığı qalaların içində başını axıracan qorxusuz saxlaya bilməz. Çünki, "göstərən saətdə dövrani-fələk bir inqilab, həm özü fani olar, həm ləşkəri, həm kişvəri" Dayandurun Allaha sualının ismarıcı bu yöndə Füzulidən gəlir.

Və Dayandur Sevgin nəhayət ki, qorxuluğunu götürə biləcək bir çıldaq olmayacaqsa Allahdan əbədi bir yuxu istəyir:

İlahi, nə olar bir qorxu göndər,
Bəndə qorxusundan mən azad olum.
Yada ki, ədəbi bir yuxu göndər,
Sənin o yuxunla bəlkə şad olum.
Bu yad qorxuları çıxar canımdan,
Sənin varlığını duyum, İlahi!
Sənin varlığını duyum, İlahi!

Amma heç o, əbədi yuxuya da tələsmir. Çünki hələ Allahın varlığını duymağa inamını itirməyib. Axı nizamın - bu dağılmış, sökülmüş nizamın bir öz məcrasına qayıtmağı da var. Şairin məramı aydın, məqsədi gözünün görə biləcəyi qədər məsafədədir. O, istəyir ki, insanlar həqiqətə gəlsinlər, doğruya gəlsinlər. Onun düşüncə məkanında sarsıntılar az qala bir insan iradəsi ilə ölüm dirim savaşındadır.



Yaxud Dayandur Sevginin "Dözüm" adlı şeiri var. Dözüm insana aid olan keyfiyyətdir. Amma dözümün min bir çalarında Dayandurun seçdiyi milyard illəri yola salıb zəmanəmizə qədər bərəkət qaynağı kimi süfrəmizə çevrilmiş torpaqdan söhbət gedir. Insan əli torpağın üzərində nə qədər mərmi, bomba, güllə, bir sözlə, dağıdıcılıq əkə bilər:

Œ. Sözün ifadə oluna bilmək gücü var. Şair açmaq istədiyi məsələnin mahiyyətini dərindən biləndə özünü ifadənin gücü əlçatmazlığa qədər qalxır. Torpağı, ma-hiyyətcə yurdu, bir az da düşüncəyə qlobal yanaşsaq yer kürəsini xilas etmək üçün bütün insanlıq səfərbər olmalıdır. Dayandurun xəbərdarlığının mahiyyə-tində də duran da budur. Dayandur Sev-ginin dünyanın taleyi ilə bağlı nigaran-lığının həddi, hüdudu yoxdur. Sanki, sərhədsiz şair misyası ilə, sərhədsiz hə-kim misyası ilə insan mənəviyyatını dağıdanların, arzu və istəkləri güllələ-yənlərin qarşısına ürəyinin səsi ilə çıxır.

Dünyanın taleyi... əgər hamımızın evi olan dünyanın taleyi haqqında şair düşünməsə bəs kim düşünəcək? Müəyyən mənada bu sualın cavabı "Adsız şeir"də verilib. Bu şeir mövzu əhatəsinə görə maraqlıdır və sanki yer kürəsinin özünü hərəkətdə götürür, və onun görünən və görünməyən tərəflərinə işıq salır:

Yoxdur kayutası, nə kabinəsi,
Hardan necə minib, necə düşərik?
Nəhəng bir gəmidir bu yer kürəsi,
Biz də ki, yol gedən sərnişinlərik.

Hərənin əməli, hərənin işi,
Gecəli-gündüzlü üzür, dayanmır.
Gözü tox adamdır sürücü kişi,
Heç kəsdən yol haqqı, pul-para ummur.

Yer kürəsini bir gəmi kimi, kainatı isə okean kimi görən şair gəmini idarə edəni də Allahın özü kimi görür və ən maraqlısı da odur ki, gəmidə olan heç kəs o kişini ələ ala bilmir. Bu gəminin içindəkilər bir-birinə qənim kəsilsə də, bir birini qırıb-çatsa da, o, heç kəsin işinə qarışmır, kimsədən pul-para ummur, ən başlıcası burada mənsəbli, adlı-sanlı əmi də, dayı da kara gəlmir. Dayandur Sevginin gəmisi açıqdır. Kim istəsə minir bu gəmiyə, vaxtı çatanın özü də kimsədən kömək almadan düşməli olur. Hətta kimsə intihar eləsə belə yenə də bu gəmini idarə eləyən




onun işinə qarışmır:

Dayandur Sevgin şeirlərində düşüncəsinin məntiqi yekunu kimi, həm özünü ifadə edir, həm də sanki sələflərinə xatırladır ki, "mən sizin ruhunuzu qoruyuram". Bu, öz sələfi qarşısında bir xələflik borcudur.

"Bir gəminin sərnişiniyik", - deyirdi Bəxtiyar Vahabzadə. Qabil "Vətəndaş sərnişinlər" - deyə hayqırırdı. Klassiklərin, hələ bizdən çox da uzaqlaşmamış babaların əmanət qoyduğu düşüncənin yaşadılması üçün o düşüncəni dərk etmək, onun bəşəri mahiyyətini anlamaq birinci şərtdir. Elə bu səbəbdən də D.Sevgin təzədən "Gəmiyə qayıdanda" sanki sələflərin əmanətinə xilaf çıxmadığını xatırladır.

Beləliklə, onun dünya duyumunda dünüa insanını daşıyan dünya gəmisinin taleyinə hər birimiz məsuluq, hər birimiz məsuliyyət daşıyırıq. Bu, D.Sevginin öz gəmisinə münasibətidir. Onun gəmisi dünya okeanında - yəni kainatda heç də təhlükələrdən xali deyil.

Qütbdə maqnit əqrəbinin öz yerini cüzi dəyişməsi, yaxud titrəməsi belə gəminin insanları arasında çaxnaşma yarada bilər. Hələ ki, gəmi kainatın "tufanları içində" ləngərlə süzməkdədir.

Insanların çox böyük qismi bu gəmidə öz işindədir. Biri ocaqçıdır, başqası çörək yapandır, biri əkir, digəri biçir, alından axan zəhmət təri həm də onu deyir ki, bu gəmidə halallıqla yol gedənlər də az deyil. Başqa sözlə Dayandur Sevginin "Adsız şeir"i dünyanı rənglərini əlvanlığı ilə sözə gətirə bilib. Çünki, şair əlinə qələm almazdan əvvəl dünyanı bütün ağrı-acıları ilə birgə, bütün rəngləri ilə birgə gözlərinin önünə gətirə bilib. Onu da demək yerinə düşər ki, gəmiçinin işinə qarışmadan bütün varlığı ilə bu gəminin taleyini düşünür, onun ağrısını çəkir, dərdini yaşayır.

Vurur sinəmizdə, döyünür ürək,
Axır alnımızdan zəhmətin təri.
Saat əqrəbləri iti dəryaz tək
Biçir ayı, günü, biçir illəri.

Beləcə yol gedir bu yer kürəsi,
Hardasa-hardasa bir səda gəlir.
Mindiyimiz gəmi həyat səhnəsi,
Düşənlər ağlayır, minənlər gülür.

Dayandur Sevginin şeirlərindəki məntiqi yekun çox vaxt aforistik məzmun daşıyır. Klassik ənənədən gələn hikmət ruhunda təzahür edir. "Adsız şeir"in son misraları sanki Qurbanini xatırladır. "Bu çərxi fələyin nərdivanı var, Yenən ağlayarmış, qalxan gülərmiş".

Dayandur Sevginin ənənə üzərində boy göstərən poeziyası bir daha təsdiq edir ki, ənənənin ruhsal gücü var. ənənəyə mənəvi bağlılıq onun şeirlərinə əbədi, yaşarı güc bəxş edir.

"İkinci addım" Dayandur Sevginin yeddinci kitabıdır. Altmış yaşa yeddi kitabla, özü də hər kitabda cəmlənmiş mükəmməl poetik örnəklərlə gəlməsi onu göstərir ki, ömrün ötən onilliklərini mənalı yaşayıb. Bir sözlə papağını günə havayı yandırmayıb. Onun şeirlərindəki həyata çağırış gücü təbiətindən gəlir, çünki həyatın özü onu bir xarakter kimi, şəxsiyyət kimi qədərincə bişirib. Demək olar ki, həyatın hər üzünü görüb. Bəzən ona elə gəlib ki, son ümidün üzülən vaxtıdır. Və bir də elə bu çıxılmazlığın arxasınca ümid günəşinin çıxdığını, dünyanı nura bələdiyini görüb. Bəlkə elə bu səbəbdən varlığında işıq gördüyü insanları idealizə edən, onların mükəmməl poetik obrazını təqdim edə bilən şeirləri də az deyil.

Addım səsi... bu sabahın səsidir. Onun poeziyasında Allahın səsi kimi həqiqətlərə rəvaç verməyə gələn tanrısal gücün səsidir.

Dayandur Sevginin şeirlərində sözlər diridir. Sudan çıxarılıb sahilə atılmış balıq kimi çırpınmır. Yenicə dünyaya gələn uşağın tanrısal çığırtısı ilə varlığını təsdiq edən dirilikdir...

Dayandur Sevginin şeirlərində dirilik nəbz kimi döyünür. Ürək ritmini